# Radio sənətimiz haqqında kitab Türkiyədə nəşr olunub

## *Professor Qulu Məhərrəmlinin qardaş ölkədə çap olunmuş yeni əsəri haqqında*




Alimlər belə hesab edir ki, kino və televiziyanın mövcudluğuna, beyinləri fəth edən internetin möcüzələrinə baxmayaraq hazıra dünyada insan fantaziyasını radioteatr qədər geniş lən dirən, xəyallarını səslə qidalandırıb coşduran, onun təxəyyülündə əsrarəngiz bir dünya yaradan ikinci sənət sahəsi yoxdur. İfadə vasitələrinin məhdudluğuna (söz, səs effektləri və musiqi) baxmayaraq insan təxəyyülündə yaratdığı səhnələrin zən ginliyi, parlaqlığı baxımından radioteatr müasir dram sənətinin ecazkar bir qoludur. Təsəvvür edin, ortada nə səhnə var, nə dekorasiya var, nə də rəngbərəng işıqlar var, heç danışan aktyorları da görmürük, am ma biz özümüzü səslərin yaratdığı əlvan bir dünyada - yəni təxəy yülümüzdə dramatik hadisələrin cərəyan etdiyi gözəl bir teatra baxırıq. Bu teatrda, sanki hər şeyi "görür", hiss edir, hər epizoddan duyğulanırıq. Bəs bu teatr necə yaradılır, o səhnələr və dialoqlar necə qurulur, aktyorlar mikrofon qarşısında necə "oynayır", səs lövhələri necə seçilir ki, biz bu səslərin vasitəsilə hər şeyi necə "görür", nəyin baş verdiyini necə dərhal qavrayırıq? Belə cazibədar suallara qardaş Azərbaycanın inkişaf etmiş radiotetr sənətinin parlaq nümunələri çox aydın bir şəkildə cavab verir. Həmin cavablar isə Türkiyədə (Ankara, "Gulnar" yayınları, 2020) nəfis şəkildə çap olunmuş "Radyo tiyatrosu sanatı" kitabında öz dolğun elmi izahənə tapmışdır. Bu fikirləri tanınmış kommunikasiya mütəxəssisi, Antalya Akev universitetinin rektoru, professor Kamilə Perçin Akgül adıçəkilən kitab barədə danışarkən söyləmişdir.

Professor qeyd etmişdir ki, kitabın müəllifi, mənim mediaçı həmkarım, qardaş Azərbaycanda çoxlarının ekrandan teleaparıcı, jurnalistika uzmanı və siyasi təhlilçi kimi tanıdığı, həm də öz sanballı elmi tədqiqatları ilə milli jurnalistikaya yeni nəfəs vermiş professor Qulu Məhərrəmlidir. Televiziya və radio nəzəriyyəsi, media problemləri və dilçilik sahəsində çoxsaylı araşdırmaların müəllifi olan Q.Məhərrəmli adı çəkilən əsərini Azərbaycan radiosunun tarixinə böyük bir sevgi ilə yazmışdır. Alim həmkarım həmin tarixi yaratmış parlaq ziyalıları, böyük fikir və sənət adamlarını, bir-birindən maraqlı tamaşaları bütün qəlbi və ruhu ilə duyaraq onlar haqqında oxunaqlı bir kitab yazmışdır. Bu qiymətli tədqiqat əsəri bir daha sübut edir ki, Azərbaycan radiosu mövcud olduğu illərdə yalnız təbliğat və ideologiya yaymaqla məşğul olmayıb, həm də qardaş xalqın mədəniyyətinin, onun bədii-estetik düşüncəsinin, milli varlığının ifadəsi olan ədəbi dil normalarının inkişafında, dil qaydalarının cilalanmasında mi silsiz rol oynayıb.

Qeyd edək ki, Azərbaycan aliminin Türkiyədə çap edilmiş "Radio teatr sənəti" adlı monoqrafik əsəri yerli mütəxəssislər arasında maraqla qarşılanıb. Kitabı türk oxucularına təqdim edən İstanbul Yeni Yüzyıl Ünversitetinin Media və jurnalistika bölümünün rəhbəri, professor Yucel Sarı yazdığı giriş məqaləsində Azərbaycan radiosunun tarixi, onun bədii verilişlər sistemi, dram sənətinin bir qolu kimi radioteatrın inkişafı, bu sahənin formalaşmasında rolu olan böyük sənətkarlar haqqında danışmış, həmçinin professor Q.Məhərrəmlinin mediadakı çoxşaxəli fəaliyyəti və elmi yaradıcılığı haqqında oxuculara məlumat vermişdir. Kitaba giriş sözü yazmış həmin universitetin İletişim fakültesinin dekanı, nüfuzlu media uzmanı professor Aysel Aziz isə əsəri "dərin akademik araşdırma", "ümumtürk elmi düşüncəsinə ciddi töhfə" kimi qiymətləndirmişdir.

Professor A.Azizin fikrincə, radioteatrı rentgen kimi bizlərə göstərən Q.Məhərrəmli elmi cəhətdən izah edir ki, teatr və televiziyadan fərqli olaraq radiotamaşada hadisələrin cərəyan etdiyi məkan insanın təxəyyülüdür. Burada söz (nitq) həm təsvir vasitəsi, həm də təsvirin predmetidir. Biz radioteatrda sözü eşidən kimi fantaziyamızı işə salır, sözlərin ifadə etdiyi mənanı (məkanı, hadisəni, obrazı, situasiyanı və s.) dərk etməyə, hadisə və obrazları öz şüurumuzda canlandırmağa çalışırıq. Bu baxımdan insanın fantaziyasını radioteatr qədər genişləndirən, xəyallarına qolqanad verən, onun təxəyyülündə əsrarəngiz bir dünya yaradan, bu dünyada cərəyan edən hadisələri aydın bir şəkildə "göstərən" ikinci bir sənət sahəsi yoxdur. Digər tərəfdən nəzərə almaq lazımdır ki, radioteatrda qavrayış fərdi olduğundan, hər dinləyicinin şüurunda fərqli bir "səhnə" yaranır. Bax bu posesdə radioteatr sənəti doğulur, çünki "teatr" anlayışı burada tamamilə yeni məzmun, yeni semantik çalar qazanır.

Təqdim olunan araşdırmada prof. Q.Məhərrəmli, məhz teatrın bu yeni məzmununu, yeni sahəsini, yəni radioteatrı əsas predmetə çevirmişdir. Bütövlükdə radiotamaşaları incəsənətin yeni, müs tə qil sahəsi kimi nəzərdən keçirən müəllif, bu tamaşaların drama turji özəlliyi, estetik təbiəti, janr xüsusiyyətləri, diferensiyası, müa sir inkişaf meylləri, burada aktyor və rejissor işinin əsas xüsusiyyətləri haqqında söhbət açmışdır. Professor Aysel Azizin fikrincə, "hazırda teleradio bütün dünyada həm gərəkli media vasitəsi sayılır, həm də, həm də bədii-estetik funksiyanın daşıyıcısı kimi çıxış edir. Teleradioya dair tədqiqatlarda məhz bu iki aspekt əsas götürülməli və gedən tendensiyaların elmi mənzərəsi cızılmalıdır. Professor Qulu Məhərrəmlinin radioteatr haqqında araşdırması məhz bu elmi rakursu əhatə etdiyi üçün qiymətlidir, müəllifin ciddi uğurudur və ümumtürk düşüncəsinə ciddi töhfədir".

Redaktorları Hamit Gök və Dr.Hüseyin Soytürk olan "Radyo tiyatrosu sanatı" kitabı qardaş ölkədə nəfis şəkildə və kütləvi tirajla nəşr edilmişdir.

***Arzu ƏHMƏDOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

Kredo.- 2021.- 11 avqust.- S.16.